

ABŞ-ın Azərbaycandakı səfirliyi Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin “İkili standartların dünya nizamı və müasir Azərbaycan’’ məqaləsinə münasibət bildirib.

“Azadlıq” radiosunun məlumatına görə, dekabrın 9-da yayılan açıqlamada deyilir: “Amerika Birləşmiş Ştatları Azərbaycanın suverenliyini hər bir zaman dəstəkləyib. Müstəqilliyini əldə edən Azərbaycana müxtəlif yönümdə dəstək nümayiş etdirən Birləşmiş Ştatlar gələcəkdə də suveren tərəfdaşlıq münasibətlərin inkişafına dair öhdəliyə sadiq olacaq.

İnanırıq ki, demokratiya, iqtisadi inkişaf və təhlükəsizlik kimi sahələr Azərbaycanın uzunmüddətli tərəqqisi üçün önəmlidir. Biz sözügedən sahələrdə əməkdaşlıq təkliflərimizi davam etdirərək müsbət addımları alqışlayacağıq. Ümidvarıq ki, Azərbaycan insan haqları və digər sahələrdə üzərinə götürdüyü öhdəlikləri həyata keçirəcək, uğur və azadlığın nümunəsi olmaq üçün mühüm potensialını istifadə edəcək”.

Xatırladaq ki, Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin «İkili standartların dünya nizamı və müasir Azərbaycan» adlı məqaləsində ABŞ-Azərbaycan münasibətlərindən danışılır. Bildirilir ki, ABŞ rəngli inqilablar vasitəsilə özünü qane etməyən hökumətləri devirir, bu məqsədlə müəyyən QHT-ləri, vətəndaş cəmiyyətinin üzvlərini maliyyələşdirir.